# Cəbrayıl növbəti sakinlərini qarşıladı









Artıq dörd ildir ki, həsrətini çəkdiyimiz torpaqlarımıza qovuşmuşuq. Müharibədən qısa müddət sonra işğalçılardan azad olunan yurd yerlərimizdə irimiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsinə, keçmiş məcburi köçkünlərin mərhələli olaraq yurdlarına qayıtmasına başlanılıb.

Doğma yurdlarına qovuşan insanların sayı gündəngünə artır, qayıdış karvanları bir-birini əvəz edir. Böyük qayıdış proqramı çərçivəsində bu günə qədər Laçın, Füzuli, Şuşa, Xocalı, Cəbrayıl şəhərləri və dörd kəndə qayıdış başlayıb. Uzun illər doğma yurd xiffəti ilə yaşayan insanların səsi artıq ata-baba ocaqlarından gəlir.

İşğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Cəbrayılda da genişmiqyaslı abadlıq-quruculuq işləri aparılır. Bu il sentyabrın 26-da Cəbrayıl şəhəri ilk sakinlərinə qovuşub. Yenidən qurulan şəhər dünən növbəti köç karvanını qarşılayıb. Bu mərhələdə şəhərə 150 nəfər (30 ailə) qayıdıb. Bununla da Cəbrayıl şəhərində 163 ailənin, 583 nəfərin daimi məskunlaşması təmin edilib.

İşğaldan azad edilmiş digər ərazilər kimi, Cəbrayıl da artıq yeni dövrünü yaşayır. Rayonun şəhər və kəndlərində yenidənqurma və bərpa işləri sürətlə davam etdirilir, sakinlərin əzəli yurdlarında rahat və firavan yaşaması üçün hər bir şərait yaradılır, infrastruktur yenidən qurulur.

Prezident İlham Əliyev Cəbrayıl rayonuna mütəmadi səfərlər edərək görülən işlərlə yaxından tanış olub, təməlqoyma və açılış mərasimlərində iştirak edib, müvafiq tapşırıq və tövsiyələrini verib. Dövlət başçısı Cəbrayıla son səfərində Mehdi Mehdizadə adına tam orta məktəbin açılışını edib, müxtəlif fabrik və zavodların, eyni zamanda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin əsasını qoyub. Prezident İlham Əliyev rayonun Horovlu kəndinə də baş çəkərək orada fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olub. Bütün bunlar onu göstərir ki, tezliklə



Cəbrayıl abad və ölkəmizin inkişaf etmiş rayonlarından birinə çevriləcək.

Düşmənin viran qoyduğu şəhər və kəndlərimiz yenidən qurulduqca uzun illərdir torpaq həsrəti yaşayan keçmiş məcburi köçkünlər torpaqlarına qovuşurlar. İndiyədək 2293 ailə - 8810 nəfər əzəli yurdlarına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 220 ailə (823 nəfər) Şuşa şəhərində, 46 ailə (179 nəfər) Xocalı şəhərində, 163 ailə, 583 nəfər Cəbrayıl şəhərində məskunlaşıb.

Tezliklə bütün şəhər və kəndlərimiz sakinlərinə qovuşacaq. 2026-cı ilin sonunda Böyük qayıdışın birinci mərhələsi bitəcək. O zamana qədər Qarabağ və Şərqi Zəngəzurda 34 min 500 ailənin təhlükəsiz məskunlaşması təmin ediləcək. Uzun illər düşmən tapdağında qalan torpaqlarımızda düşmənin qoyduğu izləri silmək asan olmasa da, qüdrətli dövlətimiz bunu təmin edəcək.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 8 noyabr (№ 247).- S.13.